# Ailə ilk sosiallaşma institutu kimi

**Sona Sadıqova**
*ADPU-nun baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** *Sonasadiqova2016@gmail.com*

**Rəyçilər:** ped.ü.f.d, dos.Ş. A. Baxışova,
ped.ü.f.d., dos. T.S. Paşayev

**Açar sözlər:** ailə, sosiallaşma, uşaq, şəxsiyyət, tərbiyə, əməkdaşlıq, inkişaf, təlim
**Ключевые слова:** семья, социализация, ребенок, личность, воспитание, сотрудничество, развитие, обучение
**Key words:** family, socialization, child, personality, upbringing, cooperation, development, training

Ailə — gənc nəslin şəxsiyyət kimi formalaşmasında və cəmiyyət həyatına hazırlanmasında böyük rolu oynayan çox mühüm amildir. Uşağın şəxsiyyətinə ailənin müsbət təsiri onunla bağlıdır ki, heç kəs ata-ana və ailənin digər üzvləri qədər uşağa sevgi və qayğı ilə yanaşa bilməz, bununla belə, heç bir digər sosial tərbiyə institutu uşağın tərbiyəsinə ailə qədər ciddi zərər yetirmək potensialına malik deyildir.

Cəmiyyət ailənin təməli üzərində qurulur. Ona görə də qədim zamanlardan bəzi ailəyə, ailə tərbiyəsinə, strukturuna ən ciddi bir məsələ kimi baxılıb. Cəmiyyətdə stabilliyin və harmoniyanın təşəkkül tapmasında ailənin üzərinə məsuliyyətli yük düşür. Öz daxili qayda-qanunları ilə formalaşıb inkişaf edən ailədə səmimi münasibətlərə əsaslanaraq, mövcud mədəni-sosioloji əlaqələrə və meyarlara söykənməklə, öz strukturunu, funksiyasını qoruyub saxlayır.

Ailə funksiyalarından olan sosiallaşdırma funksiyası sosial təcrübənin mənimsənilməsi və bu əsasda insanın şəxsiyyət kimi formalaşması ilə bağlıdır. Ailə uşaqların sosiallaşmasına özünün mənəvi-psixoloji iqlimi və ailə üzvləri arasındakı sağlam münasibətləri ilə təsir edir. Uşaq böyüdükcə onun məsuliyyət və fəaliyyət azadlığı da artır, digər ailə üzvlərinə münasibətdə onun hüquq və vəzifələri yenidən bölünür.

Nəsirəddin Tusi uşaqların tərbiyəsində ailənin roluna xüsusi diqqət verir və yaxşı ailə gələcəyə yaxşı nəsil verə bilər deyirdi. O, qeyd edirdi ki, mənzil dedikdə, palçıq, daş, kərpicdən tikilən bina nəzərdə tutulmur, burada həmçinin ərlə arvad, valideynlə övlad münasibətləri də olmalıdır. Ailə başçısı ailə üzvlərinin yerini və vəzifəsini bilməlidir.

N.Tusi həyatı uşaqlarsız təsəvvür etmir və bütün "Əxlaqi-Nasiri" əsəri boyu uşaqların tərbiyəsi diqqət mərkəzində saxlayan ali, uşaqların gələcəkdə necə olacaqlarını onların lap ilk südəmər çağlarından veriləcək tərbiyədən asılı olduğunu göstərir. Bu məqsədlə o yazır: "ata-ananın borcudur ki, hər şeydən əvvəl övladlarını vicdanlı olmağa öyrətsinlər, sonra müxtəlif tərbiyə və təlim təsirini başlasınlar. O, insan, onun şəxsiyyəti və onun şəxsiyyətinə təsir edən əxlaqi şərh etməklə uşaqların inkişafında tərbiyənin həlledici əhəmiyyətini qeyd etmişdir".

N.Tusinin fikrincə, uşaqlarda özünü göstərən həya hissinin tərbiyəsi ilə birinci növbədə məşğul olunmalıdır. Ona görə bu hissin tərbiyəsi uşaqlarda təmizlik, paklıq və s. kimi müsbət keyfiyyətlərin formalaşmasına kömək edir. O həya hissinin böyük mahiyyətini göstərərək yazır: "uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb durursa, sırtıqlıq etmirsə, bu onun

nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən çəkmir və onlara ikrah hissi ilə yanaşaraq gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olmasına dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə xüsusi fikir verməli, heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir". Bununla da uşaqların gələcək xoşbəxtliyinin böyük istedadın nəticəsi hesab edir.

Məhəmməd peyğəmbər hələ kiçik yaşlarından uşaqların düzgün tərbiyə etməyi, onlarda həya hissinin tərbiyə olunmasını zəruri sayır və deyirdi ki, insan övladı yalnız həyat sayəsində insan olur. İnsan həyalı böyüməlidir. Çünki həya vacibliyin əsasıdır. Həya və iman bir beşikdə iki körpə kimidir. Həya bəzəkdir, həya edib pis işdən çəkinmək mərhəmətdir, kəramətdir.

Ailədə uşaqların yaxşı tərbiyə edilməsinin birinci şərti valideynlərin övladlarla ədalətli rəftar etməsi, birini digərindən üstün tutmamasıdır. Valideynlər övladlarından birini daha çox sevib ona üstünlük vermiş olarsa, o biri övladlarda çox sevilən uşaqlara qarşı qısqanclıq və nifrət yarana bilər. Bu məqsədlə "Quran"ın "Yusif" surəsində geniş izah edilir və deyilir ki, qardaşlar Yusifi ona görə quyuya salırlar ki, ataları Yaqub peyğəmbər onu o biri övladlarından çox istəyirdi... "biz (bir-birimizə bağlı, sayca çox güclü) bir dəstə olduğumuz halda, Yusif... atamıza daha əzizdir. Atamız açıq-aşkar səhv edir" (8-ci ayə).

Beləliklə, "Quran"da ailə tərbiyəsinə, valideyn-övlad münasibətlərinə verilən yüksək qiymət zəmin münasibətlərin ailənin insan cəmiyyətində tutduğu mövqeyindən irəli gəlir. Ailə insan cəmiyyətinin əsas, özülü hesab edilir: insan cəmiyyətinin mövcudluğunu təmin edən amil ailədir.

Ailənin sosiallaşdırma funksiyası ilə vəhdətdə olan tərbiyə funksiyası uşaqların düzgün tərbiyəsini həyata keçirmək və ailədə bunun üçün əlverişli şərait yaratmaqla bağlıdır. Bu, ailənin sosiallaşdırma funksiyası ilə birlikdə həyata keçirilir.

Uşaqların bir şəxsiyyət kimi formalaşması, əməyə hazırlanması, ideya-siyasi, əqli, fiziki, əxlaqi, estetik, ekoloji, hüquqi və iqtisadi tərbiyəsi ailə, məktəbəqədər təhsil müəssisəsi, məktəb, ictimaiyyət və əmək kollektivlərinin diqqət mərkəzində dursa da, həmin məsələlərin həllində onların mövqeyimiz tam üst-üstə düşdüyünü zənn etmək doğru olmazdı. Bu sahədə sosial institutların hər birinin mövqeyində özünəməxsusluğu vardır. Məlum olduğu kimi, uşaq cəmiyyətin ilk özəyi olan ailədə dünyaya gəlir. Onun ilk "məktəbi" – ailə, ilk "müəllimi" – valideynləri və ailənin digər yaşlı üzvləri, ilk "dərsliyi" isə aidədəki səliqə-sahman və adət-ənənələr olur. Bu tərbiyəedici guşələr lazımi səviyyədə olanda uşaqların tərbiyəsi bünövrədən yaxşı qoyulur, düzgün istiqamətləndirilmiş olur və sonrakı inkişafı da uğurlu keçir.

Ailə tərbiyəsinin üstün cəhətləri çoxdur: uşaqların ata-anaya sonsuz məhəbbəti, bu məhəbbətin tərbiyə işində qüdrətli motiv rolunu oynaması, valideynlərin onlara "nəslin davamçısı kimi baxması, uşaqların öz vaxtının çoxunu ailədə keçirməsi, ailədə onun fərdi xüsusiyyətlərini, bacarıq və qabiliyyətini nəzərə almaq imkanlarının genişliyi və s. belə cəhətlərdəndir".

Ailədə uşaqların tərbiyəsinin düzgün təşkil edilməsində valideynlərin öz nümunəsi də həlledici rol oynayır. Valideynlər görmək istəmədikləri hərəkətlərə öz davranışlarında və ailə ənənələrində yol verməməlidirlər, çünki, uşaq gördüyünü götürür. A.Ş.Makarenkonun söylədiyi fikirlər, indi də öz aktuallığında qalır. "Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşaqların yalnız onunla danışanda və ya onu öyrədəndə tərbiyələndirirsiniz. Siz onu həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz, siz necə geyinirsiniz, başqa adamlarla və öz özgə adamlar haqqında necə danışırsınız, necə sevinir, necə kədərlənirsiniz, dostlar və düşmənlərlə necə rəftar edirsiniz,

necə gülürsünüz, qəzeti necə oxuyursunuz – bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır".

Ailə qaydaları, məhəbbət, sevgi haqqında yaxşı nümunələr əsasında uşaqlara danışmaqdan çəkinmək lazım deyil. Görkəmli şəxslərin ailə üzvlərinə necə münasibət bəslədiklərini uşaqlara necə qayğı göstərdiklərini asanlıqla söyləmək olar. Axı, insanlıq, vətəndaşlıq, diqqətlilik, qayğıkeşlik və digər nəcib keyfiyyətlər pis hərəkətlər yox etmək üçün əxlaqi immunitet vəzifəsini daşıyır. Belə nəcib keyfiyyətlər; xeyirxahlıq, mərhəmət, humanizm ocağı olan ailədə işıq saçır. Həmin hisslər valideyn nümunəsindən qida olaraq qol-qanad alır, müqəddəs və ülvi məhəbbətə çevrilir.

Uşaqlarda əxlaqi keyfiyyətləri tərbiyə edərkən valideynlər uşaqların imkanlarına müvafiq tələbkar olmalarının zərurətini yaxşı bilməlidirlər. 3-4 yaşlı uşaqlara ailədə və məktəbəqədər təhsil müəssisələrində qoyulmuş rejimi yerinə yetirməyə, yoldaşları ilə səmimi oynamağı, salamlaşmağı və vidalaşmağı səbirlə öyrətmək lazımdır. Məktəbəqədər böyük yaşlı uşaqlarda isə, onlara verilən tələbə düşüncəli münasibət tərbiyə olunur. Məsələn öz oyuncaqlarını müstəqil yığışdırmaq, vaxtında yatmaq, yuxudan oyandıqdan sonra tez qalxmaq, yoldaşlarına kömək etmək, özündən kiçik bacı və qardaşlarına qayğı göstərmək və s.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində ailə mühiti, valideynlər aparıcı rol oynayır. Göstərilən təsir aparılan təlim-tərbiyə işi o zaman effektli olur ki, tərbiyəçilər öz işlərini ailə ilə əlbir qursunlar. Bu, Təhsil Qanununda öz əksini tapıb...Tərbiyə ailədə və məktəbəqədər uşaq müəssisələrində həyata keçirilir. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar ailə ilə sıx əməkdaşlıq şəraitində tərbiyə olunurlar (1, 2).

Məktəbəqədər yaşlı uşaqların mühakimələri və həyatda baş verən hadisələrə münasibəti başlıca olaraq valideynlərin və tərbiyəçilərin mühakimə və davranışları əsasında yaranır. Ona görə də təlim-tərbiyə işində ona əsaslanmalıdırlar.

Şəxsiyyətin sosiallaşmasında tərbiyə amilinin güclü təsiri vardır. Heç təsadüfi deyil ki, A.S.Makarenko tərbiyənin yollarını düzgün təsəvvür, düzgün işıqlandırılmış biliklər məcmusu kimi dəyərləndirmişdir, böyük pedaqoji tərbiyənin prinsiplərinə hörmət və tələbkarlıq prinsipi daxil etmişdir.

Uşaqların tərbiyəsində ailə mühüm şərtdir. Valideynlər bilməlidir ki, tərbiyənin tərbiyəsi əsas şərtdir. Bəzi valideynlər uşaqların tərbiyəsinə fikir vermir. Onlar belə hesab edirlər ki, hər şey vaxtında olacaqdır. Uşaq və gənclərin şəxsiyyətinin formalaşmasında tərbiyə işində qətiyyətlə və fəal qüvvə ilə məqsədə getmək tələb olunur.

Dahi Nizami Gəncəvi "Xəmsə"sində ailə, valideyn-övlad münasibətləri, ata-ana qayğısı, ona yanğısı və s. məsələlərə dair çox qiymətli fikirlər söyləmişdir. Nizamiyə görə, kimliyindən, ictimai vəzifələr, tutduğu valideyndən asılı olmayaraq hər bir ata valideyn övladına qayğı göstərməli, onun fəziləti və qəbahətli hərəkətləri üçün cəmiyyət qarşısında məsuliyyət daşımalı, övladının qəbahətlərinə güzəşt etməməlidir. Nizami bu böyük ictimai problemi "Xosrov və Şirin" əsərində Hürmüzd, Xosrov timsalında çox kəskin qoymuşdur. Hürmüzdün oğlu şahzadə Xosrov "dəniz incisi", "nurlu çıraqların birincisi" olmasına baxmayaraq rəiyyəti incitdiyinə görə atası tərəfindən ağır cəza alır. Nizami bununla belə qanunu pozanların, xalqa ziyan yetirənlərin şahzadə olsa belə cəzalandırılmasını zəruri sayır və Hürmüzdün ədalətli hökmünü alqışlayırdı (2).

Şəxsiyyətin sosiallaşmasının mühüm bir istiqamətini ailə sosiallaşması təşkil edir. Bu da gənclərin ailə həyatına hazırlığı, valideynlərin ailə münasibətlərini düzgün qurmaları və ailənin funksiyalarını düzgün həyata keçirmələri ilə bağlıdır (3).

Ana olmağa hazırlaşan hər bir qadın əvvəlcədən uşaqların yaş və fərdi xüsusiyyətlərdən

bəhs edən kitablarla tanış olmalı, onlara yiyələnməli, bu haqda məlumatlar tapmalıdır ki, normal uşaq tərbiyə edib, gələcəkdə onun bir şəxsiyyət kimi inkişafına təkan versin.

Valideynlər uşaqların gələcək taleyi üçün tərbiyənin vacibliyini dərk etməli, tərbiyə fəaliyyətinin məqsəd və vəzifələrini, habelə bu prosesdə özlərinin yerini və məsuliyyətini yaxşı başa düşməlidirlər. A.S.Makarenko bu münasibətlə yazırdı: "Bizim uşaqlar ölkəmizin gələcək vətəndaşları, gələcək ata və analarıdır, onlar bizim qocalığımızdır. Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək dərdimizdir. Göz yaşlarımızdır, bizim başqa adamlar qarşısında təqsirimizdir. Bizim uşaqlarımız böyüyüb gözəl vətəndaş, yaxşı ata və ana olmalıdırlar" (3).

Valideynlər, xüsusən gənc valideynlər böyük pedaqoqun bu fikirlərini daim yadda saxlamalı və uşaqların tərbiyəsi – sosiallaşması işində ciddi məsuliyyətlə yanaşmalıdırlar. Çünki gənc nəslin tərbiyəsi valideynlərin bütün başqa vəzifələrindən vacib vəzifədir.

**Məqalənin aktuallığı**. Məqalənin aktuallığı ondan ibarətdir ki, ailə gənc nəslin şəxsiyyət kimi fomralaşmasında əvəzolunmaz bir qüvvəyə malikdir. Bu qüvvədən valideynlərin uşaqlara sevgi və məhəbbətlə ardıcıl, yerli-yerində, hörmət və tələbkarlıq prinsipinə uyğun olaraq istifadəsi pedaqoji-psixoloji baxımdan əhəmiyyətlidir.

**Məqalənin elmi yeniliyi**. Elmi yenilik ondan ibarətdir uşaqların şəxsiyyət kimi formalaşmasında valideynlərin özlərinin nümunəsi, milli-mənəvi, ümumbəşəri dəyərlərimiz, dahilərin, mütəfəkkirlərin fikirləri əsaslandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Tədqiqat işinin nəticələri təlim-tərbiyə prosesində, ailə tərbiyəsində yararlı ola bilər. Məqalədən magistr, məktəbəqədər təhsil müəssisələrinin pedaqoqları və tələbələr bəhrələnə bilər.

## Ədəbiyyat

1. M. İsmixanov, S. Vəliyeva. Sosial pedaqogika. Bakı, 2013.
2. Azərbaycan Respubilkasının Təhsil Qanunu. Bakı, Öyrətmən, 1993.
3. A.S. Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1959.
4. Y.R. Talıbov, F.B. Sadıqov, S.M. Quliyev. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.

**С. Садыкова**

## Семья как первоначальный институт социализации

## Резюме

Уровень социализации личности является важнейшим фактором семьи. Имеются очень много факторов влияющих на социализацию и моральность воспитания детей. В формировании детей как полноценная личность в подготовке к общественной жизни большую роль играет ранняя социализация общения со взрослыми.

Родители и педагоги с добротой проявляющие деятельность в семье являются самими близкими людьми детей. Именно они играют большую роль в формировании личности ребенка.

**S. Sadıkova**

## Family as the initial institution of socialization


## Summary

The level of socialization of the individual is the most important factor of the family. There are many factors affecting the socialization and moral education of children. In the formation of children as a full-fledged personality in the preparation for a community life, early socialization of communication with adults plays an important role.

Parents and teachers with kindness showing activity in the family are the very close people of children. They play a big role in the formation of the child's personality.


**Redaksiyaya daxil olub:** 20.07.2018